AzərbaycanRespublikası Hesablama Palatası
Kollegiyasının 2009-cu il 14 avqust tarixli
Q-47 nömrəli Qərarı ilətəsdiq edilmişdir

# Azərbaycan Respublikası Hesablama Palatasının digər dövlət orqanları ilə birgə nəzarət tədbirlərinin keçirilməsi QAYDALARI

## I. Ümumi müddəalar

1.1. "Azərbaycan Respublikası Hesablama Palatasının digər dövlət orqanları ilə birgə nəzarət tədbirlərinin keçirilməsi Qaydaları" (bundan sonra - Qaydalar) "Hesablama Palatası haqqında" Azərbaycan Respublikası Qanununun, Azərbaycan Respublikasının 2002-ci il 05 mart tarixli 269-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Hesablama Palatasının Daxili Nizamnaməsi"nin, Azərbaycan Respublikası Prezidentinin "Dövlət və bələdiyyə əmlakının və vəsaitlərinin idarə olunması sahəsində korrupsiya ilə əlaqədar hüquqpozmalara qarşı mübarizənin gücləndirilməsi haqqında" 22 iyun 2009-cu il tarixli 103 nömrəli Fərmanının, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarının, Hesablama Palatasının normativ-metodiki sənədlərinin tələblərinə, eləcə də INTOSAI (Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatı) tövsiyələri və ümumi standartlarına əsaslanaraq hazırlanmışdır.

1.2. Bu Qaydalar Hesablama Palatasının digər dövlət orqanları ilə birgə maliyyə-büdcə nəzarəti tədbirlərinin (bundan sonra birgə nəzarət tədbirləri) planlaşdırılması, həyata keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi prosedurlarını tənzimləyir.

1.3. Bu Qaydaların tələbləri Hesablama Palatasının əməkdaşları, həmçinin birgə nəzarət tədbirlərində iştirak edən digər dövlət orqanlarının səlahiyyətli nümayəndələri tərəfindən rəhbər tutulur.

1.4. Birgə nəzarət tədbirləri – Hesablama Palatasının digər dövlət orqanları ilə birgə həyata keçirdiyi maliyyə-büdcə nəzarəti tədbirləridir.

1.5. Birgə nəzarət tədbirlərinin hazırlanması, təşkili və keçirilməsi ilə bağlı bu Qaydalarla tənzimlənməyən məsələlər Hesablama Palatasının Kollegiyasının (bundan sonra - Kollegiya) qərarı ilə tənzimlənir.

## II. Birgə nəzarət tədbirlərinin formaları

2.1. Birgə nəzarət tədbirləri Hesablama Palatasının İş planı, Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikası Milli Məclisinin tapşırığı (bundan sonra tapşırıq) əsasında, eləcə də qanunvericiliyə zidd olmayan digər hallarda aşağıdakı formalarda həyata keçirilir:

2.1.1. Hesablama Palatasının və digər dövlət orqanlarının əməkdaşlarından ibarət vahid yoxlama qrupu tərəfindən həyata keçirilən birgə nəzarət tədbirləri;

2.1.2. nəticələrin sonrakı mübadiləsi və tədbirlərin nəticələri üzrə birgə sənədin hazırlanmasını nəzərdə tutan və hər bir tərəfin yoxlama qrupu tərəfindən ayrı-ayrılıqda həyata keçirilən birgə nəzarət tədbirləri.

## III. Birgə nəzarət tədbirlərinin planlaşdırılması

3.1. Hesablama Palatasının növbəti il üçün İş planı tərtib olunarkən birgə nəzarət tədbirlərinin keçirilməsinə dair təkliflər fəaliyyət istiqaməti üzrə Auditor/Auditorlar (bundan sonra Auditor) tərəfindən əsaslandırılmaqla müvafiq qaydada müzakirə üçün təqdim olunur.

3.2. Birgə nəzarət tədbirlərinin keçirilməsi barədə təklif münasibət bildirilməsi məqsədilə müvafiq qaydada digər dövlət orqanına göndərilir.

3.3. Birgə nəzarət tədbirinin keçirilməsi barədə Hesablama Palatasının təklifinə dair nəzarət orqanının münasibətinə uyğun olaraq həmin tədbirin nəzarət orqanının iştirakı ilə və ya iştirakı olmadan keçirilməsi planlaşdırılmaqla müvafiq qaydada Hesablama Palatasının növbəti il üzrə İş planının layihəsinə daxil edilə bilər.

3.4. Növbəti il üçün Hesablama Palatasının İş planının layihəsi hazırlanarkən birgə nəzarət tədbirlərinin keçirilməsi barədə nəzarət orqanlarından Hesablama Palatasına müraciətlər daxil olduğu halda Hesablama Palatası Sədrinin müvafiq tapşırığına əsasən Auditor nəzarət orqanının təklif etdiyi birgə nəzarət tədbirinin növbəti il üçün İş planının layihəsində nəzərə alınması, İş planının layihəsinə salınmış nəzarət tədbirləri üzrə ayrı-ayrı məsələlərin nəzərə alınması və ya təklif olunmuş birgə nəzarət tədbirinin keçirilməsinin məqsədəmüvafiq hesab edilməməsi barədə təkliflərini hazırlayır.

3.5. Kollegiya Auditorun nəzarət orqanı tərəfindən təklif edilmiş birgə nəzarət tədbiri barədə təklifini müzakirə edərək müvafiq qərar çıxarır və bu barədə nəzarət orqanına müvafiq qaydada məlumat verilir.

3.6. Hesablama Palatasının İş planının icrası zamanı birgə tədbirlərin keçirilməsi barədə nəzarət orqanlarından Hesablama Palatasına müraciətlər daxil olduğu halda Hesablama Palatası Sədrinin müvafiq tapşırığına əsasən Auditor tərəfindən həmin məsələ müvafiq qaydada araşdırılır, Auditorun təklifi əsasında Kollegiyanın müzakirəsinə çıxarılır və birgə nəzarət tədbirinin cari ilin İş planında nəzərdə tutulmuş nəzarət tədbirlərində ayrı-ayrı məsələlər üzrə nəzərə alınması, növbəti ilin İş planının layihəsinə daxil edilməsi və ya həmin tədbirin məqsədəmüvafiq hesab edilməməsi barədə Kollegiyada qərar qəbul edilir.

3.7. Hesablama Palatasının İş planından əlavə birgə nəzarət tədbirlərinin keçirilməsi barədə tapşırıq daxil olarsa, həmin tədbirin keçirilməsi barədə qərar Hesablama Palatasının müvafiq qaydalarına uyğun olaraq Kollegiyada müzakirə olunaraq qəbul edilir.

3.8. Hesablama Palatasının təşəbbüsü ilə həyata keçirilən birgə nəzarət tədbirlərinin planlaşdırılması Hesablama Palatasının, digər dövlət orqanlarının təşəbbüsü ilə həyata keçirilən birgə nəzarət tədbirlərinin planlaşdırılması isə həmin orqanların müvafiq normativ sənədlərinə uyğun aparılır.

## IV. Birgə nəzarət tədbirlərinin proqramlarının hazırlanması və ona dəyişikliklərin edilməsi

4.1. Hesablama Palatasının təşəbbüsü və ya rəhbərliyi ilə keçirilən birgə nəzarət tədbirlərinin Proqramının (bundan sonra Proqram) layihəsi Hesablama Palatasının müvafiq normativ-metodiki sənədlərinə uyğun hazırlanır.

4.2. Hesablama Palatasının təşəbbüsü və ya rəhbərliyi əsasında həyata keçirilən birgə nəzarət tədbirlərinin Proqramının müzakirə edilərək uyğun qərarın qəbul edilməsi, həmçinin birgə nəzarət tədbirinin həyata keçirilməsi zamanı Proqrama dəyişiklik və əlavələrin edilməsi Hesablama Palatasının müvafiq normativ-metodiki sənədlərinin və bu Qaydaların tələblərinə əsasən həyata keçirilir.

## V. Birgə nəzarət tədbirlərinin keçirilməsinə dair sərəncam və vəsiqənin rəsmiləşdirilməsi

5.1. Hesablama Palatasının təşəbbüsü və ya rəhbərliyi ilə həyata keçirilən birgə nəzarət tədbirlərinin keçirilməsinə dair sərəncam və vəsiqə Hesablama Palatasının müvafiq normativ-metodiki sənədlərinə uyğun tərtib və təsdiq olunur.

5.2. Digər dövlət orqanının təşəbbüsü və ya rəhbərliyi ilə həyata keçirilən birgə nəzarət tədbirinin keçirilməsinə dair sərəncam və vəsiqə həmin orqanın müvafiq normativ-hüquqi sənədlərinə uyğun tərtib və təsdiq olunur.

## VI. Birgə nəzarət tədbirlərinin həyata keçirilməsi

6.1. Hesablama Palatasının təşəbbüsü və ya rəhbərliyi ilə həyata keçirilən birgə nəzarət tədbirləri Hesablama Palatasının normativ-metodiki sənədlərinə uyğun olaraq aparılır.

6.2. Birgə nəzarət tədbirləri Hesablama Palatasının və ya digər dövlət orqanının təşəbbüsü ilə Hesablama Palatasının və digər orqanın əməkdaşlarından ibarət yoxlama qrupu tərəfindən həyata keçirildikdə, qrupun rəhbəri təşəbbüs göstərən orqan tərəfindən təyin olunur.

6.3. Hesablama Palatasının rəhbərliyi ilə nəticələrin sonrakı mübadiləsi və tədbirlərin nəticələri üzrə birgə sənədin hazırlanması nəzərdə tutulan və hər bir

tərəfin yoxlama qrupu tərəfindən ayrı-ayrılıqda həyata keçirilən birgə nəzarət tədbirlərində hər bir tərəfdən yoxlama qrupunun rəhbəri təyin olunur.

6.4. Birgə nəzarət tədbirlərinin vaxtında, tam və keyfiyyətlə həyata keçirilməsi üçün tərəflər işçi iclaslarının, birgə məsləhətləşmələrin keçirilməsi, məlumat və metodiki sənədlərin mübadiləsi, nəzarət tədbirinin aparılması metodlarının birgə seçilməsi və s. formasında əməkdaşlıq edirlər.

## VII. Birgə nəzarət tədbirlərinin nəticələrinin rəsmiləşdirilməsi

7.1. Hesablama Palatasının təşəbbüsü və ya rəhbərliyi ilə həyata keçirilən birgə nəzarət tədbirlərinin nəticələri Hesablama Palatasının normativ-metodiki sənədlərinə uyğun rəsmiləşdirilir.

7.2. Birgə nəzarət tədbirlərinin nəticələri üzrə yoxlanılan qurum, Hesablama Palatası və digər orqanın hər biri üçün ayrı-ayrı nəzərdə tutulmaqla akt tərtib olunur.

7.3. Hesablama Palatasının təşəbbüsü və ya rəhbərliyi ilə keçirilən birgə nəzarət tədbirinin nəticələri barədə Auditor tərəfindən müvafiq qaydada hesabat və rəy, eləcə də Kollegiya qərarının layihəsi hazırlanır. Auditor hesabatın hazırlanması prosesinə digər orqanın əməkdaşlarını da cəlb edə bilər.

7.4. Hesablama Palatasının təşəbbüsü və ya rəhbərliyi ilə həyata keçirilən birgə nəzarət tədbirlərinin nəticələri üzrə Kollegiyanın Qərarının surəti digər dövlət orqanına göndərilir.

7.5. Birgə nəzarət tədbirləri üzrə sənədlərin qeydiyyatı, həmçinin Kollegiya qərarının icrasına nəzarət mövcud qanunvericilik və Hesablama Palatasının müvafiq normativ-metodiki sənədləri əsasında həyata keçirilir.

## VIII. Məsuliyyət

Birgə nəzarət tədbirlərinin keçirilməsində iştirak edən Hesablama Palatasının əməkdaşları qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.